Baku 2015
1st EUROPEAN GAMES

# Fəxr et, qürur duy, AZƏRBAYCAN!









# Boksçularımız Avropa birincisidirlər

İyunun 26-da I Avropa Oyunlarının boks yarışlarının 10 çəki dərəcəsində yarımfinal və final görüşləri keçirildi. Yarışların keçirildiyi Bakı Kristal Zalında kişi idmançılar 7, qadın idmançılar isə üç çəki dərəcəsində mübarizəni davam etdirdilər.

Boks yarışlarının 11-ci günündə Azərbaycan boksçularından altısı rinqə çıxdı. Onlardan 57-60 kq çəki dərəcəsində Yana Alekseyevna, 60 kq çəki dərəcəsində Albert Səlimov, 69 kq çəki dərəcəsində Pərviz Bağırov, 75 kq çəki dərəcəsində Xaybula Musalov və 91 kq çəki dərəcəsində çıxış edən Abdulqadir Abdullayev yarımfinal görüşlərini keçirdilər. İdmançılarımızdan 52 kiloqram çəki dərəcəsində mübarizə aparan Elvin Məmişzadə və 64 kq çəkidə çıxış edən Lorenso Sotomayor isə iyunun 26-da final görüşlərini keçirdilər.

Azərbaycan idmançılarından rinqə ilk olaraq 57-60 kq çəki dərəcəsində mübarizə aparan qadın boksçumuz Yana Alekseyevna çıxdı. Onun yarımfinaldakı rəqibi irlandiyalı Keti Teylor idi. İdmançımız əvvəlki mərhələlərdə olduğu kimi əzmlə mübarizə aparsa da, görüş İrlandiya təmsilçisinin 2:1 hesablı qələbəsi ilə başa çatdı. Yana Alekseyevna I Avropa Oyunlarının bürünc medalçısı oldu.

60 kq çəki dərəcəsində yarımfinal görüşünü keçirən Albert Səlimovun rəqibi Sin Makkomb da İrlandiya təmsilçisi idi. Lakin bu dəfə görüş Azərbaycan idmançısının qələbəsi ilə başa çatdı. 3:0 hesabı ilə qalib gələn Albert Səlimov finala çıxdı.

Albert Səlimovun qələbə estafetini 69 kq çəki dərəcəsində çıxış edən Pərviz Bağırov davam etdirdi. İdmançımız Böyük Britaniya təmsilçisi Coş Kelliyə 3:0 hesabı ilə qalib gələrək finala vəsiqə qazanan növbəti idmançımız oldu.

Yarımfinal mərhələsində izləyicilərinə qələbə sevinci bəxş edən digər idmançımız isə Xaybula Musalov oldu. 75 kq çəki dərəcəsində döyüşən idmançımızın finala gedən yolda rəqibi macarıstanlı Zoltan Harşa idi. 2:1 hesablı qələbə ilə Xaybula Musalov finala çıxdı.

Həmin gün yarımfinal mərhələsində son olaraq idmançılarımızdan 91 kq çəki dərəcəsində çıxış edən Abdulqadir Abdullayev rinqə çıxdı. Bu mərhələdə Rusiya təmsilçisi Sadam Məhəmmədovla döyüşən Abdulqadir Abdullayev rəqibinə heç bir şans vermədi - 3:0.

Günün ikinci yarısında isə Azərbaycan idmançıları qızıl medal uğrunda final görüşlərini keçirdilər. 52 kiloqram çəki dərəcəsində I Avropa Oyunlarında həlledici görüşünü keçirən idmançımız Elvin Məmişzadənin rəqibi İtaliya təmsilçisi Vinçenzo Pikardi idi. Xatırladaq ki, buna qədər idmançımız səkkizdəbir final mərhələsində irlandiyalı Mayls Kaseyi, dörddəbir final mərhələsində bolqarıstanlı Daniel Asenovu, yarımfinalda isə almaniyalı Həmzə Tubanı mübarizədən kənarlaşdırmışdı.

Görüşü Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri izləyirdilər.

Elvin Məmişzadə əvvəlki görüşlərdə olduğu kimi I Avropa Oyunlarının çempionu adı uğrunda döyüşünü də yüksək mübarizə ruhunda keçirdi. Nəticədə hər üç raundu üstün başa vuraraq 3:0 hesabı ilə qələbə qazanan idmançımız I Avropa Oyunlarının çempionu oldu.

Mükafatlandırma mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Elvin Məmişzadəyə və digər idmançılara medalları təqdim etdi. Azərbaycanın Dövlət himni səsləndi, dövlət bayrağı ucaldıldı.

Azərbaycan ictimaiyyətinə günün son qələbə sevincini isə 64 kq çəkidə çıxış edən Lorenso Sotomayor yaşatdı. Xatırladaq ki, buna qədər idmançımız onaltıda bir final mərhələsində sloveniyalı Edin Sejdinoviçi, səkkizdəbir final mərhələsində moldovalı Dmitri Qalaqotu, dörddəbir final mərhələsində rumıniyalı Daniel Nikuleskunu, yarımfinalda isə ukraynalı Viktor Petrovu mübarizədən kənarlaşdırmışdı.

Ardı 5-ci səh.












# Fəxr et, qürur duy, AZƏRBAYCAN!

Baku 2015
1st EUROPEAN GAMES














# Boksçularımız Avropa birincisidirlər

*Əvvəli 4-cü səh.*

Finalda idmançımızın rəqibi London Olimpiya Oyunlarının bürünc mükafatçısı olan italiyalı Vinçenzo Mangiakapre idi. Lorenso Sotomayor final döyüşündə də rəqibinə heç bir şans vermədi və qələbə seriyasını davam etdirərək boks üzrə üçüncü qızıl medalı qazandı.

Bu çəki dərəcəsində də qalib idmançılara medalları Azərbaycan Prezidenti İlham Əliyev təqdim etdi. Azərbaycan idmançısının qələbəsinin şərəfinə Dövlət himnimiz səsləndi, bayrağımız ucaldıldı.

İyunun 27-də isə I Avropa Oyunlarında boks yarışlarına yekun vuruldu. Yarışların sonuncu günündə kişilər arasında 60 kq, 69 kq, 75 kq, 91 kq, qadınlar arasında isə 57-60 kq çəki dərəcələrində final görüşləri keçirildi. Kişilər arasınla final görüşlərinin hamısında Azərbaycan idmançıları çıxış edirdilər.

Final görüşlərini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri izləyirdilər.

İlk olaraq 57-60 kq çəki dərəcəsində çıxış edən qadın boksçuların final görüşü keçirildi. Qızıl medal uğrunda rinqdə irlandiyalı Keti Teylorla fransalı Estelle Mosseli qarşılaşdılar. Görüş İrlandiya təmsilçinin qələbəsi ilə başa çatdı.

Kişi boksçuların final görüşlərində rinqə ilk olaraq 60 kq çəki dərəcəsində çıxış edən idmançımız Albert Səlimov çıxdı. Onun rəqibi fransalı Sofian Umiha idi. Qeyd edək ki, Albert Səlimov mübarizəyə səkkizdəbir final mərhələsindən başlamışdı. İdmançımız bu mərhələdə Gürcüstanı təmsil edən Otar Eranosyanı, dörddəbir final mərhələsində Bolqarıstan idmançısı Elian Dimitrovu mübarizədən kənarlaşdırmışdı. Yarımfinalda isə idmançımız irlandiyalı rəqibi Sin Makkombu məğlub etmişdi.

Finalda olduqca cəld və taktikalı döyüş nümayiş etdirən Albert Səlimov çoxsaylı zərbələri ilə hər üç raundu üstün başa vurdu. Beləliklə, boks üzrə kişilər arasında 60 kq çəki dərəcəsində I Avropa Oyunlarının çempionu Azərbaycan idmançısı Albert Səlimov oldu.

Bu görüşdən sonra Bakı Kristal Zalında 57-60 kq çəki dərəcəsində qalib olmuş qadın idmançıların mükafatlandırılması mərasimi keçirildi. İrlandiyalı Keti Teylora qızıl, fransalı Estelle Mosseliyə gümüş, Azərbaycan idmançısı Yana Alekseyevnaya və almaniyalı Buqar Taşinaya bürünc medal təqdim olundu.

İdmançılarımızdan növbəti final görüşünü Pərviz Bağırov keçirdi. 69 kq çəki dərəcəsində döyüşən idmançımız finalda rusiyalı Aleksandr Besputinlə gücünü sınadı. Pərviz Bağırov ilk görüşünü səkkizdəbir final mərhələsində keçirmişdi. İlk görüşdə moldovalı Vasili Belousu məğlub edən idmançımız, dörddəbir finalda almaniyalı Abass Baraunu mübarizədən kənarlaşdırmış, yarımfinalda britaniyalı Coş Kellini məğlub etmişdi.

Final görüşündə Pərviz Bağırov öz döyüş taktikası ilə rəqibini tamamilə çıxılmaz vəziyyətdə qoydu. Elə bu səbəbdən də Aleksandr Besputin hər üç raundda Pərviz Bağırovun ardıcıl zərbələri ilə üzləşdi. Yekunda döyüş Azərbaycan idmançısının qələbəsi ilə başa çatdı.

Daha sonra 60 kq çəki dərəcəsində qalib olan idmançılar mükafatlandırıldılar. Bürünc medallar irlandiyalı Sin Makkombla polşalı Mateuş Polskiyə, gümüş medal fransalı Sofian Umihaya, qızıl medal Azərbaycan idmançısı Albert Səlimova təqdim olundu. İdmançılara medalları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təqdim etdi. Albert Səlimovun qələbəsinin şərəfinə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi, Dövlət bayrağımız ucaldıldı.

75 kq çəki dərəcəsində döyüşən idmançımız Xaybula Musalov isə həlledici görüşündə irlandiyalı Maykl Orelli ilə üz-üzə gəldi. Xaybula Musalov səkkizdəbir final mərhələsində fransalı Kristian Mbilli Assomo-Halyeni, dörddəbir final mərhələsində belaruslu Vitali Bandarenkanı, yarımfinalda macarıstanlı Zoltan Harşanı məğlub etmişdi.

Final döyüşü qarşılıqlı hücumlar şəraitində keçdi. Birinci raundda Maykl Orelli, ikinci raundda isə Xaybula Musalov üstün oldu. Görüşün sonunda qalib İrlandiya təmsilçisi elan edildi.

Bu görüşdən sonra 69, 75 və 91 kq çəki dərəcələrində qalib idmançıların mükafatlındırılması mərasimi keçirildi. İlk olaraq 69 kq çəki dərəcəsində qaliblər medallarla təltif olundular. Medalları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təqdim etdi. Bürünc medallar ukraynalı Yaroslav Samofalov və britaniyalı Coş Kelliyə, gümüş medal rusiyalı Aleksandr Besputinə, qızıl medal isə Azərbaycan idmançısı Pərviz Bağırova təqdim edildi. Pərviz Bağırovun qələbəsinin şərəfinə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi, Dövlət bayrağımız ucaldıldı.

75 kq çəki dərəcəsində qaliblərin mükafatlandırılması mərasimində bürünc medallar macarıstanlı Zoltan Harşaya və rusiyalı Maksim Koptyakova, gümüş medal Azərbaycan idmançısı Xaybula Musalova, qızıl medal irlandiyalı Maykl Orelliyə təqdim olundu.

Qeyd edək ki, Azərbaycan idmançılarından rinqə son olaraq 91 kq çəki dərəcəsində çıxış edən Abdulqadir Abdullayev çıxmalı idi. Lakin onun rəqibi, Ukrayna təmsilçisi Gevorq Manukyan zədə səbəbindən final görüşünə çıxa bilmədi və Abdulqadir Abdullayev boks üzrə 91 kq çəki dərəcəsində I Avropa Oyunlarının qalibi oldu.

91 kq çəki dərəcəsində bürünc medallar xorvatiyalı Yosip Bepo Filipi və rusiyalı Sadam Məhəmmədova, gümüş medal Ukrayna təmsilçisinə, qızıl medal isə Azərbaycan idmançısı Abdulqadir Abdullayevə təqdim olundu. Medalları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təqdim etdi. Abdulqadir Abdullayevin qələbəsinin şərəfinə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi, Dövlət bayrağımız ucaldıldı.



Beləliklə, I Avropa Oyunlarında yarımfinala çıxmış 11 Azərbaycan boksçusundan Elvin Məmişzadə (52 kq), Albert Səlimov (60 kq), Pərviz Bağırov (69 kq), Lorenso Sotomayor (64 kq), Teymur Məmmədov (81 kq), Abdulqadir Abdullayev (91 kq) qızıl, Xaybula Musalov (75 kq) gümüş, Tayfur Əliyev (56 kq), Məhəmmədrəsul Məcidov (+91 kq), Anna Əlimərdanova (51-54 kq) və Yana Alekseyevna (57-60 kq) bürünc medala sahib oldular.

***Rəşad CƏFƏRLİ,***
***Ağaəli MƏMMƏDOV (foto)***
***"Azərbaycan"***








## I Avropa Oyunlarının yarış təqvimi

Baku 2015
1st EUROPEAN GAMES

**28 iyun**

### VOLEYBOL
*"Baku Crystal Hall"*

**10:30** Kişilər **Bürünc medal**
**13:00** Kişilər **Qızıl medal**

### BADMİNTON
*Bakı İdman Sarayı*

**12:00** Kişilər Təklər **Finallar**
**13:00** Qadınlar Təklər **Finallar**
**14:00** Qarışıq Cütlər **Finallar**

### ÇİMƏRLİK FUTBOLU
*Çimərlik Arenası*

11:30 Kişilər Klassifikasiya 7-8
13:00 Kişilər Klassifikasiya 5-6
14:30 Kişilər **Bürünc medal**
16:00 Kişilər **Qızıl medal**

### BMX VELOSİPED İDMANI
*"BMX Veloparkı*

**15:00** Kişilər **Yarımfinal**
**15:40** Qadınlar **Final**
**16:30** Kişilər **Final**

### CÜDO
*Heydər Əliyev adına İdman Sarayı*

**11:00** Kişilər Komanda 1/4
**11:00** Qadınlar Komanda 1/4
**11:30** Kişilər Komanda Yarımfinallar
**11:30** Qadınlar Komanda Yarımfinallar
**12:00** Kişilər Komanda Təsəlliverici görüş
**12:00** Qadınlar Komanda Təsəlliverici görüş
**14:30** Kişilər Komanda **Bürünc medal**
**14:30** Qadınlar Komanda **Bürünc medal**
**15:30** Kişilər Komanda **Final**
**15:30** Qadınlar Komanda **Final**